# Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən musiqi, incəsənət, bədii sənətkarlıq, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə işə qəbul ilə bağlı müsabiqə elanı

- Musiqi, incəsənət, bədii sənətkarlıq, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu ilə bağlı ümumi məlumat
- Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2024-cü il 5 aprel tarixli 3-24/3-1-f-84/2024 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların və direktor müavinlərinin işə qəbulu və yerdəyişməsi Qaydaları" və "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları"
- Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin 2024-cü il 01 may tarixli 125 nömrəli əmri ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları"
- Test imtahanı mərhələsi üzrə proqramlar
- İmtahanda iştirak etmək üçün qeydiyyat

## Musiqi, incəsənət, bədii sənətkarlıq, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu ilə bağlı ümumi məlumat

Musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2024-cü il 5 aprel tarixli 3-24/3-1-f-84/2024 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların və direktor müavinlərinin işə qəbulu və yerdəyişməsi Qaydaları", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları" və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin 2024-cü il 01 may tarixli 125 nömrəli əmri ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları"nın tələblərinə müvafiq olaraq aparılır.

Qaydalara əsasən, məktəb və mərkəzlərə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu müsabiqə əsasında həyata keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarət olmaqla iki mərhələdə təşkil olunur.

***Direktorların*** və ***direktor müavinlərinin*** işə qəbulu üzrə müsabiqədə ali təhsil müəssisələrinin müvafiq ixtisaslarını (ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə ixtisasların təsnifatının "Mədəniyyət və incəsənət ixtisasları qrupu" üzrə) bitirərək dövlət nümunəli təhsil sənədi (diplom) almış (xarici dövlətin təhsil müəssisəsini bitirmiş şəxslərə münasibətdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair təsdiq edilmiş şəhadətnaməni təqdim etmiş), ixtisası üzrə 5 ildən az olmayaraq pedaqoji əmək stajı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

***Müəllimlərin*** işə qəbulu üzrə müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrinin müvafiq ixtisaslarını (orta ixtisas təhsili, ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə ixtisasların təsnifatının "Mədəniyyət və incəsənət ixtisasları qrupu" üzrə) bitirərək dövlət nümunəli təhsil sənədi (diplom) almış (xarici dövlətin təhsil müəssisəsini bitirmiş şəxslərə münasibətdə müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair təsdiq edilmiş şəhadətnaməni təqdim etmiş) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müəllimlərin müsabiqədə iştirak etmək üçün ixtisas tələbi (Cədvəl 1) məktəb və mərkəzlərdə tədris olunan fənlərə və ixtisaslara əsasən müəyyən edilmişdir.

## *Cədvəl 1: İxtisas tələbi*

| | |
|---|---|
| | **Orta ixtisas təhsili üzrə ixtisaslar** |
| **Musiqi** | |
| 1. | İnstrumental ifaçılıq (fortepiano, violin, viola, violonçel, kontrabas, fleyta, qoboy, klarnet, faqot, saksofon, valtorna, truba, trombon, zərb alətləri, tar, kamança, balaban, saz, qarmon, nağara, qanun) |
| 2. | Fortepiano |
| 3. | Orkestr alətləri (violin, viola, violonçel, kontrabas, fleyta, qoboy, klarnet, faqot, saksofon, valtorna, truba, trombon, zərb alətləri) |
| 4. | Simli alətlər (violin, viola, violonçel, kontrabas) |
| 5. | Nəfəsli və zərb alətləri (fleyta, qoboy, klarnet, faqot, saksofon, valtorna, truba, trombon, zərb alətləri) |
| 6. | Xalq çalğı alətləri (tar, kamança, balaban, saz, qarmon, nağara, qanun) |
| 7. | Xalq çalğı alətləri ifaçılığı (tar, kamança, balaban, saz, qarmon, nağara, qanun) |
| 8. | Aşıq sənəti |
| 9. | Estrada musiqi sənəti (gitara) |
| 10. | Vokal sənəti (akademik vokal, xanəndəlik) |
| 11. | Opera kamera müğənnisi |
| 12. | Oxuma (akademik vokal, xanəndəlik) |
| 13. | Xanəndəlik |
| 14. | Musiqi nəzəriyyəsi |
| 15. | Xor dirijorluğu |
| **Təsviri sənət** | |
| 16. | Rəngkarlıq |
| 17. | Rəngkarlıq (sahələr üzrə) |
| 18. | Rəssamlıq |
| 19. | Qrafika |

| | |
|---|---|
| 20. | Heykəltəraşlıq |
| **Xoreoqrafiya** | |
| 21. | Xoreoqrafiya sənəti (klassik rəqs, milli rəqs) |
| | |
| **Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisaslar** | |
| **Musiqi** | |
| 1. | İnstrumental ifaçılıq (fortepiano, violin, viola, violonçel, kontrabas, fleyta, qoboy, klarnet, faqot, saksofon, valtorna, truba, trombon, zərb alətləri, gitara, tar, kamança, balaban, saz, qarmon, nağara, qanun) |
| | İnstrumental ifaçılığı (fortepiano) |
| 2. | Fortepiano |
| 3. | Orkestr alətləri (violin, viola, violonçel, kontrabas, fleyta, qoboy, klarnet, faqot, valtorna, trombon, tuba, saksofon, zərb alətləri) |
| 4. | Xalq çalğı alətləri ifaçılığı (tar, kamança, balaban, saz, qarmon, nağara, qanun) |
| 5. | Xalq çalğı alətləri (tar, kamança, balaban, saz, qarmon, nağara, qanun) |
| 6. | Azərbaycan xalq çalğı alətləri (tar, kamança, balaban, saz, qarmon, nağara, qanun) |
| 7. | İfaçılıq (vokal, xanəndəlik) |
| 8. | Vokal sənəti (akademik vokal, xanəndəlik) |
| 9. | Solo oxuma (akademik vokal, xanəndəlik) |
| 10. | Oxuma (akademik vokal, xanəndəlik) |
| 11. | Musiqişünaslıq |
| 12. | Musiqişünaslıq – musiqi tənqidi |
| 13. | Bəstəkarlıq |
| 14. | Kompozisiya |
| 15. | Dirijorluq (xor dirijorluğu, xalq çalğı alətləri orkestrinin dirijoru) |
| 16. | Xor dirijorluğu |
| 17. | Xor dirijoru |
| 18. | Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri (Xalq çalğı alətləri orkestrinin rəhbəri, müəllim) |
| **Təsviri sənət** | |
| 19. | Rəngkarlıq |
| 20. | Rəssamlıq |
| 21. | Qrafika |
| 22. | Heykəltəraşlıq |

| | |
|---|---|
| **Xoreoqrafiya** | |
| 23.. | Xoreoqrafiya sənəti (klassik rəqs, milli rəqs, baletmeyster) |
| **Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisaslar** | |
| **Musiqi** | |
| 1. | İnstrumental ifaçılıq (fortepiano, violin, viola, violonçel, kontrabas, fleyta, qoboy, klarnet, faqot, saksofon, valtorna, truba, trombon, zərb alətləri, gitara) |
| 2. | Fortepiano |
| 3. | Orkestr alətləri (violin, viola, violonçel, kontrabas, fleyta, qoboy, klarnet, faqot, saksofon, valtorna, truba, trombon, zərb alətləri, gitara) |
| 4. | Xalq çalğı alətləri ifaçılığı (tar, kamança, balaban, qarmon, qanun, saz) |
| 5. | Xalq çalğı alətləri (tar, kamança, balaban, qarmon, qanun, saz) |
| 6. | Aşıq sənəti |
| 7. | Xanəndəlik |
| 8. | Solo oxuma (xanəndəlik) |
| 9. | Opera kamera müğənnisi |
| 10. | Vokal ifaçılığı (akademik vokal) |
| 11. | Musiqişünaslıq |
| 12. | Musiqi tarixi |
| 13. | Musiqi nəzəriyyəsi |
| 14. | Bəstəkarlıq |
| 15. | Dirijorluq (xor dirijorluğu, xalq çalğı alətləri orkestrinin dirijoru) |
| 16. | Xor dirijorluğu |
| 17. | Xalq çalğı alətləri dirijorluğu |
| **Təsviri sənət** | |
| 18. | Rəngkarlıq |
| 19. | Rəngkarlıq (sahələr üzrə) |
| 20. | Qrafika |
| 21. | Heykəltəraşlıq |
| **Xoreoqrafiya** | |
| 22. | Xoreoqrafiya sənəti (klassik rəqs, milli rəqs, baletmeyster) |
| | |

## *Aşağıdakı hallarda vətəndaşlar musiqi, incəsənət, bədii sənətkarlıq, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu ilə bağlı müsabiqədə iştirak edə bilməzlər:*

- Məhkumluğu ödənilməmiş, məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən fəaliyyət qabiliyyətsizliyi təsdiq edilmiş, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 18 fevral tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğul olmağa yol verməyən xəstəliklərin Siyahısı"na əsasən sağlamlıq vəziyyəti ilə əlaqədar pedaqoji fəaliyyət göstərməsi qadağan olunan şəxslərin müsabiqədə iştirakına yol verilmir;
- İnzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi ilə əlaqədar işdən azad edilmiş müəllimlərin pedaqoji işə qaytarılması məsələsinə mövcud qanunvericilik və Qaydalar əsasında baxılır. İntizam tənbehi tədbiri əsasında işdən azad edilən şəxslər 6 ay müddətində müsabiqəyə buraxılmırlar.

## *Müsabiqə aşağıdakı ardıcıllıqla həyata keçiriləcəkdir:*

- Onlayn qeydiyyat
- Test imtahanı
- Müsahibə

## *Onlayn qeydiyyat*

Musiqi, incəsənət, bədii sənətkarlıq, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı **2 iyun 2024-cü il** tarixində keçiriləcəkdir. İmtahanda iştirak etmək istəyən namizədlərin qeydiyyatı Dövlət İmtahan Mərkəzinin rəsmi internet saytında **02.05.2024-cü il saat 09:00-dan 22.05.2024-cü il saat 18:00-dək** aparılacaq. Qeydiyyat üçün xidmət qeyd edilən tarixlərdə aktiv olacaq.

İmtahanda iştirak etmək istəyən namizədlər DİM-in portalında "Şəxsi kabinet"lərini yaratmalıdırlar (şəxsi kabineti olmayanlar). Kabinet yaradılan zaman pul hesabı açılır. Namizədin imtahanda iştirak etməsi üçün *direktorların və direktor müavinlərinin* müsabiqəsində ödəniş məbləği 100 AZN (ƏDV daxil olmaqla), *müəllimlərin* müsabiqəsində ödəniş məbləği 80 AZN (ƏDV daxil olmaqla) təşkil edir. "Şəxsi kabinet"də olan pul hesabına vəsait daxil etmək üçün müxtəlif ödəniş üsullarından (ətraflı məlumat burada) istifadə etmək olar.Şəxsi kabinet yaradıldıqdan sonra imtahanda iştirak etmək üçün DİM-in rəsmi internet saytında **"Musiqi, incəsənət, bədii sənətkarlıq, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanında iştirak etmək üçün onlayn qeydiyyat"** xidməti vasitəsilə qeydiyyatdan keçmək lazımdır.

Qeydiyyatdan əvvəl namizədlər təhsil haqqında məlumatlarının "Tələbə-məzun" dövlət elektron məlumat sistemində olub-olmadığını "Elektron hökumət" portalından DİM-in "Vətəndaş haqqında "Tələbə-məzun" dövlət elektron məlumat sistemindən çıxarış" elektron xidməti vasitəsilə öyrənə bilərlər.Qeydiyyat zamanı təhsil haqqında məlumatlar "Tələbə-məzun" dövlət elektron məlumat sistemi vasitəsilə yoxlanılır. Namizəd haqqında məlumatlar sistemdə olmadıqda onun qeydiyyatı aparılmır. Bu halda Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrini bitirmiş namizəd ona aid məlumatların "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilməsi üçün bitirdiyi təhsil müəssisəsinə müraciət etməlidir. Xaricdə təhsil almış namizədlər və sistemdə ali təhsil haqqında məlumatı olmayan digər namizədlər 3 – 20 may 2024-cü il tarixlərində DİM-in inzibati binasına (AZ1078, Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev küçəsi, 299) və ya regional bölmələrinə müraciət etməlidirlər. Məlumatları "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilmiş namizədlər qeydiyyatdan keçə bilərlər.

**Qeyd:** 2023-cü ildə keçirilmiş musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanının nəticəsi 2 il qüvvədə olduğu üçün uğurlu nəticə göstərmiş namizədlər bu il də müsabiqənin müsahibə mərhələsində iştirak üçün qeydiyyatdan keçə biləcəklər. Bununla belə, onlar cari ilin test imtahanı mərhələsində də öz istəklərinə görə iştirak edə bilərlər.

Yeni qaydalara əsasən 2024-cü ildə keçiriləcək müsabiqənin test imtahanının uğurlu nəticəsi yalnız cari müsabiqənin müsahibə mərhələsində iştirak hüququ verir. Bununla əlaqədar namizədin iddia etdiyi vəzifələr üzrə mövcud olan vakansiyalarla tanış olduqdan sonra müsabiqədə iştirak üçün qeydiyyatdan keçə bilər. Müsabiqədə iştirak üçün qeydiyyatdan keçməyən şəxslər müsabiqəyə buraxılmır.

Məktəb və mərkəzlərdə direktor, direktor müavinləri üçün nəzərdə tutulmuş vakansiyalar barədə bu linkdən , müəllim vəzifələri üzrə mövcud olan vakansiyalar barədə bu linkdən keçid etməklə tanış ola bilərlər.
Musiqi ixtisasları üzrə müəllimlərin işə qəbulu müsabiqəsinin test proqramlarının klassik və milli musiqi üzrə differensiallaşdırılmış şəkildə hazırlandığını nəzərə alaraq, namizədlərin qeydiyyat zamanı ixtisaslarına uyğun müvafiq kitabçanı seçməsi tələb olunur.

## *Cədvəl 2: İmtahana qeydiyyat və imtahanın keçirilmə tarixi*

| | Qeydiyyatın başlama tarixi | Qeydiyyatın bitmə tarixi | İmtahan tarixi |
|---|---|---|---|
| İmtahan | 02 may 2024-cü il | 22 may 2024-cü il | 2 iyun 2024-cü il |

## *İmtahanın keçirilməsi*

1. **Direktor** və **direktor müavinlərinin** işə qəbulu üzrə müsabiqənin test imtahanında namizədlərin aşağıdakı sahələr üzrə bilik və bacarıqları qiymətləndiriləcək:

- Fəaliyyət istiqaməti üzrə normativ hüquqi aktlar
- Pedaqogika və pedaqoji psixologiya
- Məntiqi düşünmə
- Ümumi dünyagörüşü

- Test imtahanı zamanı namizədlərə 100 qapalı tipli test tapşırığı təqdim olunur və bu tapşırıqların yerinə yetirilməsi üçün 3 saat vaxt ayrılır. Hər bir düzgün cavab 1 balla qiymətləndirilir. Səhv cavablar düz cavabların nəticəsinə təsir göstərmir.
- Test imtahanında namizədə müvafiq vakant vəzifənin fəaliyyət istiqamətinə aid normativ hüquqi aktlar üzrə biliklərini qiymətləndirmək üçün 50, pedaqogika və pedaqoji psixologiya üzrə biliklərini müəyyən etmək üçün 15, namizədin məntiqi düşünmə bacarığını müəyyən etmək üçün 15 və ümumi dünyagörüşünü əhatə edən 20 test tapşırığı təqdim edilir.
- Test imtahanında toplanması mümkün olan maksimum nəticə 100 baldır. Direktor vəzifəsinə iddia edən namizədlər imtahanda təqdim edilmiş test tapşırıqlarından 50 bal topladıqda (Bakı, Sumqayıt, Gəncə şəhərləri və Abşeron rayonu üzrə məktəblərdə işə qəbul olunmaq istəyən namizədlər istisna olmaqla) uğur qazanmış hesab edilir.
- Bakı şəhəri üzrə məktəblərdə direktor vəzifəsinə iddia edən namizədlər imtahanda 70 bal, Abşeron rayonu, Sumqayıt və Gəncə şəhərləri üzrə məktəblərə işə qəbul üçün imtahanda 60 bal topladıqda uğur qazanmış hesab edilirlər.
- Direktor müavini vəzifəsinə iddia edən namizədlər üçün “Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların və direktor müavinlərinin işə qəbulu və yerdəyişməsi Qaydaları”nın 4.4-cü və 4.5-ci bəndlərində qeyd olunan keçid ballarına nisbətdə 10 faiz aşağı keçid balı müəyyən edilir (müvafiq olaraq 45, 63 və 54 bal).
- Test imtahanı mərhələsinin nəticələri müvafiq arayışla rəsmiləşdirilir.
- Test mərhələsində tələb olunan keçid balını toplayaraq uğur qazanan namizədlər müsahibə mərhələsinə buraxılır.

## *Cədvəl 3: İmtahanın strukturu*

| İmtahan blokları | Sual sayı |
|---|---|
| 1. Normativ hüquqi aktlar üzrə | 50 |
| 2. Pedaqogika və pedaqoji psixologiya | 15 |

| İmtahan blokları | Sual sayı |
|---|---|
| 3. Məntiqi təfəkkürün yoxlanılması | 15 |
| 4. Ümumi dünyagörüşü | 20 |

## *Cədvəl 4: Keçid balı*

| | Keçid balları | |
|---|---|---|
| | Direktorlar üçün, bal | Müavinlər üçün, bal |
| Bakı şəhərində yerləşən məktəblər üzrə | 70 | 63 |
| Sumqayıt və Gəncə şəhərlərində, Abşeron rayonunda yerləşən məktəblər üzrə | 60 | 54 |
| Digər məktəb və mərkəzlər üzrə | 50 | 45 |

2. **Müəllimlərin** işə qəbulu imtahanında namizədlərin aşağıdakı sahələr üzrə bilik və bacarıqları qiymətləndiriləcək:

- ○ Namizədin ixtisas üzrə bilikləri (müvafiq olaraq musiqi / təsviri sənət / xoreoqrafiya)
- ○ Pedaqogika və pedaqoji psixologiya
- ○ Məntiq
- ○ Ümumi dünyagörüşü

- İmtahanda namizədlərə yalnız qapalı tipli tapşırıqlar təqdim olunacaq. Test imtahanında namizədlərə ixtisas bilikləri üzrə 40 sual, pedaqogika üzrə 10 sual, məntiq üzrə 10 sual, ümumi dünyagörüşü üzrə 10 sual olmaqla 70 sual təqdim edilir. Hər bir suala düzgün cavab 1 (bir) balla qiymətləndirilir. Səhv cavablar düz cavabların nəticəsinə təsir göstərmir.
- Ümumilikdə imtahan prosesi 2 saat davam edəcək.

## *Cədvəl 5: İmtahanın strukturu*

| İmtahan mövzuları | | | Sual sayı |
|---|---|---|---|
| 1. Namizədin ixtisasından asılı olaraq | | | 40 |
| Musiqi | Təsviri sənət | Xoreoqrafiya | |
| 2. Pedaqogika və pedaqoji psixologiya | | | 10 |
| 3. Məntiqi təfəkkürün yoxlanılması | | | 10 |
| 4. Ümumi dünyagörüşü | | | 10 |

- Test imtahanında toplanılması mümkün olan maksimum nəticə 100 faizlə ifadə edilir.
- İmtahanda təqdim edilmiş test tapşırıqlarından 50 faizini düzgün cavablandıraraq 35 bal toplamış namizədlər (Bakı, Sumqayıt və Gəncə şəhərlərində, Abşeron rayonunda yerləşən məktəblərdə işə qəbul olunmaq istəyən namizədlər və “Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət

və bədii sənətkarlıq məktəblərinə müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları"na 2 nömrəli Əlavədə nəzərdə tutulmuş ixtisaslara müraciət etmiş namizədlər istisna olmaqla) uğur qazanmış hesab edilirlər.

- Bakı şəhərinin məktəbləri üzrə işə qəbul üçün imtahanda təqdim edilmiş test tapşırıqlarından 70 faizini düzgün cavablandıraraq 49 bal toplamış namizədlər, Abşeron rayonu, Sumqayıt və Gəncə şəhərləri üzrə məktəblərə işə qəbul üçün imtahanda təqdim edilmiş test tapşırıqlarından 60 faizini düzgün cavablandıraraq 42 bal toplamış namizədlər ("Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları"na 1 nömrəli Əlavədə nəzərdə tutulmuş ixtisaslara müraciət etmiş namizədlər istisna olmaqla) uğur qazanmış hesab edilir.
- Test imtahanı mərhələsinin nəticələri müvafiq arayışla rəsmiləşdirilir.
- Test mərhələsində tələb olunan keçid balını toplayaraq uğur qazanan namizədlər müsahibə mərhələsinə buraxılır.
- Bir sıra ixtisaslar üzrə keçid balları "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları"na 1 nömrəli Əlavəyə və "Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları"na 2 nömrəli Əlavəyə əsasən müəyyən edilir.

## *Cədvəl 6: Keçid balı*

| | Keçid balı | |
|---|---|---|
| | **Faiz** | **Bal** |
| Bakı şəhərində yerləşən məktəblər üzrə | 70 | 49 |
| Sumqayıt və Gəncə şəhərlərində, Abşeron rayonunda yerləşən məktəblər üzrə | 60 | 42 |
| Digər məktəb və mərkəzlər üzrə | 50 | 35 |

## *Müsahibənin keçirilməsi*

- Test mərhələsində tələb olunan keçid balını toplayaraq uğur qazanan namizədlər müsahibə mərhələsinə buraxılırlar.

Namizədlər müsahibə mərhələsi ilə bağlı ətraflı məlumatı "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların və direktor müavinlərinin işə qəbulu və yerdəyişməsi Qaydaları" və "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu və yerdəyişməsi Qaydaları"ndan əldə edə bilərlər. Sözügedən qaydalar və müsahibə proqramları Mədəniyyət Nazirliyinin rəsmi informasiya resurslarında yerləşdirilmişdir (https://culture.gov.az/az/elanlar/175, https://culture.gov.az/az/umumi-xeberler/15537).